

GÜLSADƏ İBRAHİMLİ

# VƏTƏN BİR İNCİDİR

Gülsadə İBRAHİMLİ

# *VƏTƏN BİR İNCİDİR*

Naxçıvan - 2003

İbrahimli G. Ə. "Vətən bir incidir" (şerlər) "Əcəmi". 2003. Səh. 60.

4700000000
053-2003

© "Əcəmi" 2003.

*Gülsadə Əhməd qızı İbrahimli 1986-cı ildə Culfa rayonunun Dizə kəndində dünyaya göz açıb. Hazırda 10-cu sinif şagirdidir.*

*Vətənə sevgi, xüsusilə, doğma Naxçıvanda həyata keçirilən möhtəşəm quruculuq işlərinə diqqət Gülsadənin ilham mənbəyinə çevrilmişdir.*

*Coşqun poetik duyğularla yazıb-yaratmağa çalışan Gülsadə İbrahimlinin "Vətən bir incidir" şerlər kitabı oxuculara ikinci töhfəsidir.*

*Gənc şairə Gülsadə xanımı təbrik edir, ona poeziyanın çətin və şərəfli yollarında yeni uğurlar arzulayırıq.*

## VƏTƏN BİR İNCİDİR

Varsa da dünyada nə qədər inci,
Yalnız birincidir, vətən bir inci.
Həyatda hər kəsə doğmadır vətən
Demirəm bu sözü dedim birinci.

Ancaq bir sözüm var gəlir dərindən,
Keçərmi Türk oğlu öz ellərindən?
Biz də Türk oğluyuq, bu yurdun oğlu,
Qurtaraq vətəni düşmən əlindən.

Qalxaq, qələbənin şanlı bayrağın,
Sancaq əsir düşən o zirvələrə.
Oxuyaq ürəkdən vətən marşını,
Qələbə müjdəsin verək ellərə.

## QAYIDIŞ

Elə mərd oğullar yetirir vətən,
Tarix yaddaşında əbədi qalır.
Ayrılmır heç zaman doğma elindən
Yalnız həyatını xalqa bağlayır.

Qayıtdı vətənə xalqımın oğlu,
Yox oldu zülmətin qaranlıqları.
Onun qayıdışı qurtuluş oldu,
Qazandı millətim sərt sınaqları.

Qaranlıq gecənin zülmətlərində,
Duyuldu öndərin çağırış səsi.
Şanlı azadlığın sərt cəbhəsində,
Qazandı millətim haqq qələbəsi.

Onun qayıdışı düşdü tarixə,
"Xalq Heydər, Heydər xalq" şüarı altda.
Deyirəm eşq olsun qoy həmin günə!
Qazandıq o günü azadlığı da.

# MƏNİM ŞAH DAĞIM–
# MÖHTƏŞƏM HEYDƏR

O, qüdrət siması, qəlbi asiman,
Parlayır yurdumda bir günəş kimi.
Onu xilaskar tək yetirib zaman,
Qoy ellər eşitsin bu haqq səsimi.

Yıxılan, dağılan bir xanimanı,
O qurub yaratdı hey zərrə-zərrə.
Yenidən yaşatdı Azərbaycanı,
Alqışlar deyirəm mən bu hünərə.

O nurlu üzündən saçıldı işıq,
Alışan qəlbindən od aldı vətən.
Keçdiyi sınaqlar qarma-qarışıq
Sənin hünərinə min kərə əhsən.

O dərin zəkanın dərinliyindən,
Doğdu vətən üçün bir nurlu sabah.
Xoşbəxtlik paylayan o əllərindən
Yapışsın daima qoy, ulu Allah.

Deyirəm, görəsən sən olmasaydın,
Kim xilas edərdi xalqı bəladan.
Ey qəlbi günəşli, çöhrəsi aydın,
Səni çox görməsin bizə yaradan.

Doğdu əməlinlə hər nurlu səhər,
Sənin gözlərində parladı günəş.
Hər andın, əməlin bir şanlı zəfər,
Qaranlıq zülmətə gətirdin atəş.

Durduğun zirvədən baxırlar bu gün,
Odlar diyarına-Azərbaycana.
Yenilməz qüdrətin, siyasət gücün,
Bu gün bir örnəkdir bütün cahana.

Ey mənim yenilməz cəsur sərkərdəm,
Sənin gözündədir sabahın nuru.
Sən mənim Şah dağım, möhtəşəm zirvəm,
Ey ulu Allahım, sən onu qoru.

Ey vətən övladı, iradən mətin,
Sənin qəlbindədir hər yaz, hər bahar.
Hələ bu vətənin, qoca millətin,
Sənə neçə illər ehtiyacı var.

## EL OĞLU İLHAM

Xalqına bağlıdır arzu, istəyi,
Xalq üçün döyünür daim ürəyi.
Halaldır İlhama vətən çörəyi,
Elinin oğludur, el oğlu İlham.

O, dahi oğludur, Ona bənzəyir,
Əhdindən, fikrindən geri dönməyir.
Qorxunu, bəlanı gözü görməyir,
Elinin oğludur, el oğlu İlham.

Həm böyük insandır, həm siyasətçi,
Sülhün sərhəddində igid sərhədçi.
Xalqın mərd övladı, əsl vətənçi,
Elinin oğludur, el oğlu İlham.

Qazanıb cahanda çox böyük hörmət,
Vardır görkəmində mərdlik, cəsarət.
Sözündə, özündə vardır əzəmət,
Elinin oğludur, el oğlu İlham.

# ULU RƏHBƏRİM

Heydərimlə qoşadır bu gün müstəqilliyim,
Heydərimdən güc alır bu gün qələmim, dilim
Odur ulu rəhbərim
Odur bizim əsil vətən oğlumuz,
Odur bizim Kür, Araz adlı sağ-solumuz,
Üç rəngli bayrağımı Odur göyə qaldıran,
Sınmaz qüvvət qolumuz.
Göydə tanrı, yerdə əziz Heydərim
Odur ulu rəhbərim.
Onun arxasındadır bütün Azərbaycan,
Onun arxasındadır mavi Xəzər, Mil, Muğan.
O, xalqıma arxadır, xalqım Heydərə hər an
Onunladır mənim də daim vuran ürəyim.
Odur ulu rəhbərim.
O yaratdı yenidən azad, müstəqil diyar,
Yeni Azərbaycanım Heydərimlə bəxtiyar,
Partiyanla güləcək hər bir məkan, hər diyar
Mən də Heydərçiyəm, ona bağlı diləyim,
Odur ulu rəhbərim.
Eşit məni, yağı düşmən,
Çox əlləşmə fitnə, fəsad oyunlarda,
Aldadırsan özünü sən qurduğun bəd yalanlarla,
Birləşsən də, dörd bir yana zəhər saçan ilanlarla,
Şərlənsək də atdığın o böhtanlarla
Unutma ki, bunlar keçməz, tarix sevməz yalanları,
Unutma ki, Heydər kimi rəhbərim var.

Unutma ki, Heydər kimi millət oğlu öndərim var.
Heydər dövrün haqq səsidir,
O, sülh sevir, sülh aşiqi, sülhün tərəfdarıdır.
Unutma ki, xalqım ona, O, xalqıma güvənir.
Ey qara donlu kafir, eşit bunu, duy bunu
Azərbaycan torpağında, Azərbaycan göylərində
Sülh bayrağı yellənir.
Bu torpaqdan, bu millətdən, bu rəhbərdən
İlham alır ürəyim
Odur ulu rəhbərim,
Odur əziz rəhbərim!

# VAR OLSUN BABAMIZ

Sevinir ürəyim, sığmır köksümə,
Güc verir dilimə, həm qələmimə.
Bir tərif söyləyim Babama, yenə
Yaşasın, var olsun Heydər Babamız!

Tanıdır elimi bütün cahana,
Zəka sahibləri vurğundur ona.
Parlayan günəşdir Azərbaycana,
Yaşasın, var olsun Heydər Babamız!

Biz onun nəvəsi, ümidləriyik,
Qurduğu dövlətin gələcəyiyik.
Onun arxasınca biz gedəcəyik,
Yaşasın, var olsun Heydər Babamız!

# TARİXİN ÜÇ ŞƏXSİYYƏTİ

Fəxr edir bu cahan, bu Azərbaycan,
Heydər tək qüdrətli rəhbəri vardır.
Onunla qoşadır xalqımız hər an,
Millətim Heydərlə şən, bəxtiyardır.
Fəxr edir Naxçıvan, bu qədim məkan.
Nə qədər qeyrətli övladı vardır.
Öyünür Naxçıvan oğluyla hər an,
Vasif tək əvəzsiz memarı vardır.
Ucalır gəncliyim aya-ulduza,
İlham Heydər oğlu arxadır ona.
Himnimiz səs saldı Sidney zalına,
İlhamlar gərəkdir Azərbaycana.
Coşubdur ürəyim bu gün sevincdən,
Deyirəm, İlahi, nə bəxtiyaram.
Yazıldı onlarla tarix yenidən,
Qüdrətli Heydərim, Vasif və İlham.
Xalqımla qoşadır üç böyük insan,
Onlarla ucalır Bakı, Naxçıvan.
Tarixin üç böyük əziz insanı,
Yaşadacaq daim Azərbaycanı.

# ONUNLA UCALIR QƏDİM NAXÇIVAN

Ucalır onunla qədim Naxçıvan,
O, böyük iş görür, olsa da cavan.
Bəzəyib vətənin hər bir qucağın,
Fərhad tək bəzəyir vətən torpağın.
Qoymayır vətəndə qəm, kədər gəzə,
El üçün gecəsin qatır gündüzə.
Döndərib cənnətə vətən qucağın,
Qalayıb nə qədər vətən ocağın.
Qoymayıb çiçəksiz qalsın bir budaq,
Onun zəhmətindən can alır torpaq.
Sual ver, ey səyyah, kimdir bu insan?
Onda söhbət salım bu el oğlundan,
Vasif tək qeyrətli vətən oğlundan.
Əməl sahibidir, söz sahibidir,
Yalana qənimdir, düz sahibidir.
Qayğıkeş, xeyirxah, həm də ciddidir,
Qurub yaratmaqda dönməz, qətidir.
Naxçıvan çox sevir əziz oğlunu,
Daim nurlu görək ömür yolunu.
Qoy Tanrı qorusun daima sizi,
Sizinlə ucadır yurdumun səsi.

# NAXÇIVANIM
# MƏRD OĞULLAR YETİRDİ

Çağla, ürək, coş ey ilham, dalğalan,
Yaz bu yurddan, yaz bu elin oğlundan,
Qeyrətiylə bu dünyaya səs salan,
Zaman bizə xilaskarı gətirdi
Naxçıvanım mərd oğullar yetirdi.

Toy libası geydi o gün vətənim,
Tarix boyu qan içində itənim.
Qəhrəmanlar qucağında bitənim,
Naxçıvanım mərd oğullar yetirdi.

Zülmətlərdən söküldü dan ulduzum
Qanad açdı hər diləyim, hər arzum.
Vətən deyər: "Yaşa mənim ay oğlum!".
Naxçıvanım mərd oğullar yetirdi.

Getdi bulud, doğdu nurlu səhərim,
Eldən-elə dalğalandı zəfərim,
Tanrı səni bizə verdi, Heydərim,
Naxçıvanım mərd oğullar yetirdi.

Yaşa elin, yaşa yurdun rəhbəri,
Ömür yolun qəhrəmanlıq əsəri.
Sən bu xalqın, bu millətin öndəri,
Naxçıvanım mərd oğullar yetirdi.

## MÜQƏDDƏS OCAQLAR YARADAN İNSAN

Mənim qibləgahım, mənim məscidim,
Sən mənim and yerim, sən mənim pirim.
Sevgidən yoğrulmuş ən ulu şerim--
...Məktəb.
Ana qucağı tək isti bir qucaq
Arzuyla, ümidlə qalanan ocaq.
Bizlər bir pərvanə, sən odlu çıraq,
Xoşbəxt günlərimin ocağı məktəb.
O, bir anadır mehriban ana,
Qol açır on bir il uşaqlarına,
İsti bir nəfəslə alır qoynuna...
Məktəb–
Müqəddəs bir kəlmə,
Müqəddəs bir söz.
Bir ömür yoluna baxır iki göz.
Yüzü adlasa da, qocalsa belə.
Ancaq bir şey var o, unudulmur.
Baxırsan məktəbə vüqarla durur,
Deyirsən: görəsən bunu kim qurur?
Canlanır gözümdə bu an bir insan,
Xiyabanlar salan, min ocaq quran,
Arzulu, sevincli günə yol açan,
Uca bir insan–Vasif müəllim!
Bu gün bu kəlmə
Yüz illərə qovuşsa belə,

Qalacaq millətin dilində əzbər,
Vasif– ümidsizin ümid çırağı,
Vasif– kimsəsizin arxa, dayağı.
Qurur neçə-neçə böyük məktəblər
Sevinir ürəkdən mən, sən, o
Bütövlükdə bizlər...
Milyon ürəklərə işıq paylayır,
Xalq üçün, el üçün döyünən ürək.
Əməliylə arzular açır gül-çiçək
Yaşa, Vasif müəllim, elinlə qoşa!
Gördükcə bu çağı qəlb gəlir coşa.
Qurub yaratdıqca cənnət vətəndə
Bu çağdan güc alıb şer yazım mən də.

## NAXÇIVANLA QOŞA YAŞA, VASİFİM

Ömür yolun nurlu olsun, vətən oğlu,
Üzün gülsün, könlün olsun nurla dolu.
Xalq yoluyla qoşalaşdı ömür yolu,
Naxçıvanla qoşa yaşa, Vasifim.

Tükənməzdir əzmin, gücün, qüdrətin
Hədər getməz, vətən oğlu, zəhmətin.
Sən bu elin sevimlisi, bu el sənin qeyrətin,
Naxçıvanla qoşa yaşa, Vasifim.

Qurub yarat, vətən sənə əmanət,
Vətən oğlu, səndə vardır dəyanət.
Tükənməzdir səndə olan sədaqət
Naxçıvanla qoşa yaşa, Vasifim.

Sevinci ol bu vətənin, bu yurdun,
Neçə-neçə binaları sən qurdun.
Unutma ki, bu yurd sənin, sən yurdun,
Naxçıvanla qoşa yaşa, Vasifim.

Halal sənə, halal vətən çörəyi;
Sən bu xalqın həm arzu, həm diləyi.
Vətən sənin, sən vətənin gərəyi.
Naxçıvanla qoşa yaşa, Vasifim.

Bacarmıram sənə layiq ad deyim,
Qeyrətinə layiq olan ad verim
Deyən çoxdur, qoy birin də mən deyim.
Naxçıvanla qoşa yaşa, Vasifim.

## QƏDİM NAXÇIVAN

Qədimdir bu diyar, qədimdən qədim,
Ey qoca Naxçıvan, qədim məskənim.
Bilinməz tarixin, bilinməz yaşın,
Sən necə ulusan, ey məmləkətim.
Zəngindir torpağın xəzinələr tək,
Tarix qayasında sən açan çiçək.
Oğlanların igid, qızların göyçək,
Nə qədər gözəldir doğma Naxçıvan.
Can alıb suyundan nə qədər ərən,
Torpağını öpüb, döyüşə girən
Yolunda baş qoyub, canından keçən
İgidlər anası ey böyük cahan.
Şəfəqlər içində ucalan diyar,
Səndə əsirlərin yadigarı var.
Dünya bir qıfılsa, sən qızıl açar,
Sirlisən ulduz tək, igid Naxçıvan.
Yaşa ey məmləkət, yaşa ey diyar!
Tarixə bərabər bir yaddaşın var,
Möhtəşəm türbələr, ulu qalalar
Sənin ziynətindir, ey mərd Naxçıvan.

# MƏNİM DİLİM

Layla kimi əziz, şirin
Əvəzsizdir mənim dilim.
Hər bir sözün, hər bir şerin
Mənasıdır mənim dilim.

Necə təmiz, necə paksan
Sinəm üstə bir bulaqsan.
Gəncliyimə işıq saçan,
Bir günəşdir mənim dilim

Millətimin böyük varı,
Kəlmə-kəlmə arzuları.
Qönçə-qönçə duyğuları
Çiçəkləyər sənlə, dilim.

# BİZİM ŞANLI BAYRAĞIMIZ

Zamanın od-alovunda,
Sarsılmadı sınağında.
Günəş kimi işıq saçdı,
Bizim şanlı bayrağımız.

Zəfərlərdən qanad aldı,
Dəniz kimi dalğalandı.
Zaman-zaman ucalandı,
Bizim şanlı bayrağımız.

Dalğalan, üç rəngli bayraq,
Ay ulduzun nurlu çıraq.
Vətən sənlə ucalacaq,
Bizim şanlı bayrağımız.

Heydərimin gücüylə sən,
Ən möhtəşəm zirvədəsən.
Dalğa-dalğa nur çiləyən,
Bizim şanlı bayrağımız.

## AZƏRBAYCAN

Vurğunumun misraları,
Səndən aldı ilk baharı.
Dədə Qorqud yadigarı,
Azərbaycan, Azərbaycan.

Bir zirvəsən başın çəndi,
Saçlarına düşən dəndi.
Bu qədər dərd de nədəndi?
Azərbaycan, Azərbaycan.

Mənim andım, mənim varım,
Sənə bağlı arzularım.
Sənsən mənim ilk baharım,
Azərbaycan, Azərbaycan.

Qibləgahım, and yerimsən,
Sən, ocağım, sən pirimsən.
Sən Məkkəmsən, Mədinəmsən,
Azərbaycan, Azərbaycan.

Mənim azad, xoşbəxt yurdum,
Sabahıma gedən yolum.
Qılınc çalan qüvvət-qolum,
Azərbaycan, Azərbaycan.

Sənsən mənim şan-şöhrətim
Mən qızınam, sən qeyrətim.
Dünya boyda məhəbbətim–
Azərbaycan, Azərbaycan.

## NUHÇIXANIM

Qədim yurdum, qədim vətən,
Əcəminin əsərisən.
Qoca türkün məskənisən,
Mənim ulu Nuhçıxanım,
Canım-gözüm Naxçıvanım.

Zaman adlı bir rəssamın,
Fırçasından çıxmısan sən.
Başdan-başa bir tarixsən.
Mənim ulu Nuhçıxanım,
Canım-gözüm Naxçıvanım.

Ötəcəkdir aylar, illər,
Dəyişəcək bu nəsillər.
Qalacaqdır bir söz əzbər,
Yaşa, ulu Nuhçıxanım,
Canım-gözüm Naxçıvanım.

Sinəndə var minbir naxış,
Gəlsin bahar, getsin bu qış.
Ürək desin sənə alqış,
Mənim ulu Nuhçıxanım,
Canım-gözüm Naxçıvanım.

Gözəlləşir ildən-ilə,
Ürək coşur, gəlir dilə.
Sən də şair, nəğmə söylə,
De ki, ulu Nuhçıxanım
Canım-gözüm Naxçıvanım.

## XOŞ GƏLDİNİZ
*(Kəndimizdə suyun açılışı münasibəti ilə)*

Xoş gəldiniz dizəlinin elinə,
Sevinc verdiz Gülsadənin könlünə.
Ümidliyəm qələmimə mən yenə,
Xoş gəldiniz bu gün Dizə kəndinə.

Günəş kimi şəfəq saçan əməli,
Kəndimizdən bu gün də yan ötmədi,
Çəkdirdiniz kəndimə su kəməri,
Xoş gəldiniz bu gün Dizə kəndinə.

Su yox idi, dərdli idi kəndimiz,
Ünvanlandı yenə sizə dərdimiz.
Bir siz idiz bizim ümid yerimiz,
Xoş gəldiniz bu gün Dizə kəndinə.

Vasif müəllim, xoş əməldir işiniz
Fərəhlənir hər zəfərdən qəlbimiz.
Minnətdardır bu gün sizə kəndimiz,
Xoş gəldiniz bu gün Dizə kəndinə.

Sevindirdiz xoş əməllə hamını,
Sizin kimi ər oğula tay hanı?
Salamlayır kəndin qoca, cavanı,
Xoş gəldiniz bu gün Dizə kəndinə.

## GÜLLƏN, NAXÇIVAN

Şanlıdır keçdiyin inkişaf yolu,
Qönçələn günbəgün, güllən, Naxçıvan.
İllər sənin üçün olsun uğurlu,
Qönçələn günbəgün, güllən, Naxçıvan.

Dəyişən libasın bahar, yaz olsun,
Sevincin çox olsun, dərdin az olsun.
Qoymaram qoynunda bir gül də solsun,
Qönçələn günbəgün, güllən, Naxçıvan.

O böyük qurucun səndən güc alır,
Qoynuna gör necə naxışlar salır.
Gəlib-gedənlər də sənə mat qalır,
Qönçələn günbəgün, güllən, Naxçıvan.

Gecə çıraqbandır uzun küçələr
Dərin qaranlıqdan qalmayıb əsər.
Hər guşən bir nəğmə, bir təzə əsər.
Qönçələn günbəgün, güllən, Naxçıvan.

Sənin gözəlliyin qəlbə iz salar,
O ay da, günəş də səni qısqanar.
Nəsillər dəyişər yadigar qalar,
Bu gündən sabaha gülşən Naxçıvan.

## VƏTƏN BAYATILARI

Əzizim Vətən deyər,
Dil-dodaq vətən deyər.
Millət bir olsa əgər,
Düşmənin qəddin əyər.

Əzizim, el qızıyam,
El canlı, el qızıyam.
Vətənimin yolunda
Ölməyə də razıyam.

Əzizim qızıl qanlar,
Töküldü qızıl qanlar.
Silinməz tarixımdən,
O qanlı iyirmi Yanvar.

Əzizim vətən ağlar,
Bu dərdə vətən ağlar.
Vətən üçün ölənə
Yas tutar, vətən ağlar.

Əzizim şəhidlərə,
Yas tutdum şəhidlərə.
Onlardan ibrət alıb,
Bənzəyək igidlərə.

## İRƏLİ, İGİD ƏSKƏRİM

Bağla sən çəkməni, götür tüfəngi,
Qələbə yolları bizləri gözlər.
Sənə ilham versin qoy "Misri", "Cəngi",
İrəli, irəli igid əskərim.

Odludur silahın qələmim kimi,
Sənə həsr edirəm şanlı nəğməmi.
Dönmə haqq işində bir addım geri,
İrəli, irəli igid əskərim.

Dön düşmən gözündə yıxılmaz dağa,
Səs ver eldən gələn hər bir sorağa.
Qoyma yollarına yağış, qar yağa,
İrəli, irəli igid əskərim.

Cəsarət yar olsun həmişə sənə,
Divan tut amansız, yağı düşmənə.
Dön başı üstündə dumana, çənə,
İrəli, irəli igid əskərim.

Qaldır ucalara vətən bayrağın,
Əziz tut həmişə vətən torpağın.
Güldür qəmli üzün sən Qarabağın,
İrəli, irəli igid əskərim.

Oxu vətən marşın, ey vətən oğlu,
Qələbə yolların olsun uğurlu.
heç zaman hiss etmə canında qorxu,
İrəli, irəli igid əskərim.

## AYAĞA QALX

Vətənimiz qalıb darda,
Oğlu, qızı axı harda?
Torpaq əsir–intizara,
Ayağa qalx, mərd əskərim.

Vətən ümid edir bizə,
Göz dikibdir yola-izə.
Dağ çəkilib sinəmizə,
Ayağa qalx, mərd əskərim.

Düşmənlərin tapdağında,
Parçalandı caynağında,
Qalib oğul sorağında.
Ayağa qalx, mərd əskərim.

Ümidim yox bir kimsəyə,
Sarılmışam dərdə, qəmə.
Üz tuturam bu gün sənə,
Ayağa qalx, mərd əskərim.

Azadlığın yollarında,
Düşməlisən hələ oda.
Müjdə gətir ana yurda,
Ayağa qalx, mərd əskərim.

# HARDADI

Bir dərdim var, ürəyimi paralar,
Desəm dilim, yazsam qələm odlanar.
Dağlar yanar, daşlar yanar, el yanar,
Laçınımın Şahin oğlu hardadı?

İllər keçib, hələ çatmır əlimiz,
"Vay" deməkdən qabar olub dilimiz.
Çağırırıq yetmir ona səsimiz,
Laçınımın Şahin oğlu hardadı?

Biz bu tayda, Laçınım o taydadı,
Biz yasdayıq, quduz düşmən toydadı.
Ağla ürək, çünki vətən dardadı,
Laçınımın Şahin oğlu hardadı?

Vətən oğlu, sarıl artıq silaha,
Dözmək üçün dözümümüz yox daha.
Cavabdehik biz bu günə, sabaha,
Laçın deyər: "Şahin oğlu hardadı?"

## QARABAĞ YOLU

Gedibdir elimin ən gözəl payı,
Gedibdir Şuşanın, Laçının tayı,
Səs verin, igidlər, səsiniz hanı,
Sizləri gözləyir Qarabağ yolu.

Tökülüb üstünə neçə qızıl qan,
Can verib qoynunda nə qədər cavan,
O, imdad diləyir bizdən hər zaman
Sizləri gözləyir Qarabağ yolu.

O, mənim elimin acı yarası,
Körpəcə balanın şirin laylası.
Qalxın, igidlərim, alın qisası,
Sizləri gözləyir Qarabağ yolu.

Ey mənim xalqımın igid ordusu,
Bilirəm sizdə yox düşmən qorxusu.
Ürəyi ümidli, gözləri dolu,
Sizləri gözləyir Qarabağ yolu.

## ANAM, AY ANAM

Nə qədər dövr edir damarda qanım,
Nə qədər yaşayır bədəndə canım.
Nə qədər ucalsa şöhrətim, şanım,
Yetməz qüdrətinə anam, ay anam.

Ucalsa şöhrətim, ucalsa şanım,
Dəyişsə həyatda yerim, məkanım.
Bir sənsən dəyişməz sabit ünvanım,
Qoynundur məskənim anam, ay anam.

Yüz şer söyləyim, dastanlar qoşum,
Adına sözlərdən qəsrlər qurum.
Dırnaqdan başadək bir nəğmə olum.
Dəyərmi adına anam, ay anam?

Qurbandır adına bu iki gözüm,
Acizdir önündə şerim-sözüm.
Elə mən qurbanam, sənə mən özüm,
Yolunda ölərəm anam, ay anam.

## FƏXRİMİZ SƏNAN

Vətəni od-alov bürüyən zaman,
Bir an da rahatlıq tapmadı Sənan.
Yola saldı səni, get dedi anan,
Gedib dönməz oldu fəxrimiz Sənan.

Yollandı döyüşə qəhrəman o gün,
Vətəni bəladan qurtarmaq üçün.
Söylədi atalar, gedin, sağ dönün,
Gedib dönməz oldu fəxrimiz Sənan.

Döyüşdü düşmənlə igid qorxmadan,
Güc aldı elindən, bu doğma yurddan.
Azadlıq istədi yalnız Allahdan,
Gedib dönməz oldu fəxrimiz Sənan.

Vuruşdu düşmənlə Sənan sonacan,
Söylədi sən yaşa, ey Azərbaycan.
Vətənin yolunda qurban verdi can,
Gedib dönməz oldu fəxrimiz Sənan.

Çatdı acı xəbər o gün elinə,
Neçə od yaxıldı ana qəlbinə.
Bir nisgil ələndi bacı köksünə,
Gedib dönməz oldu fəxrimiz Sənan.

Dözmədi bu dərdə ana ürəyi,
Qovuşdu həsrətə arzu, diləyi.
Solmuşdu atanın ümid çiçəyi,
Gedib dönməz oldu fəxrimiz Sənan.

Ey cəsur qardaşım, qəhrəman Sənan,
Sən şəhid adınla yaşayacaqsan.
İgidlə fəxr edir ellər hər zaman.
Yurdumun fəxridir qəhrəman Sənan.

## AZADLIQ EŞQİ

Bir gün bir quşcuğazı qəfəsə saldım,
Şirin azadlığın əlindən aldım.
Düşündüm gözəldir, zərifdir xeyli,
Könlün şad edərəm, qalmaz gileyli.
Bəsləram mən onu təbiət kimi,
Söylərəm hər səhər ona nəğməmi.
Yaxşı saxlayaram bu quşcığazı,
Ömrünə gətirrəm baharı, yazı,
Daha yem dalınca gəzib usanmaz,
Daha boz daşlarda suzundan yanmaz,
Beləcə düşündüm, düşündüm xeyli,
Artıq niyyətimin əsası bəlli.
Həbs etdim bu quşu dəmir qəfəslə,
Əzizlədim onu böyük həvəslə.
Bəzədim qəfəsi rəng-rəng çiçəklə,
Yemlədim mən onu növ-növ yeməklə.
Dayansam da hər an mən qulluğunda,
Bir gün bir durğunluq duydum cannıda.
Nə yeyib, nə içir, nə tərpənirdi,
Sanki göz görə-görə əldən gedirdi.
Durub zilləyirdi mənə gözlərin,
Bir dil istəyirdi deyə sözlərin.
Oxudum gözündən onun qəlbini,
Sanki yalvarırdı "Azad et məni".
Duydum gözlərindən o ülvi eşqi,
Azadlıq dünyada ən böyük sevgi.

Aldım quşcığazı bir an əlimə,
Zillədi gözlərin düz gözlərimə.
Son dəfə oxudu mənə qəlbini,
Dedi çox görməyim ona elini.
Bir də gözlərindən duydum bunları,
Ən əziz cənnətdir vətən dağları.
O boz qayalarda ac qalsam da mən,
Yaxşıydı bəzəkli bu dar qəfəsdən.
Çör-çöplü yuvada qalsam da, inan,
Doymurdum dünyanın azadlığından...
Qəfəsdən ötürdüm onu səmaya,
Buraxdım mən onu azad dünyaya.
Sanki uca-uca təşəkkür etdi,
Azadlıq, azadlıq, gözəl nemətdi!

## VƏTƏN BİZİ BAĞIŞLARMI GÖRƏSƏN

Dindirməyin, yaman dolub ürəyim,
Torpağımda soldu gülüm, çiçəyim.
Yüküm ağır, bilmirəm ki, neyləyim,
Vətən bizi bağışlarmı görəsən?

Yaman yandı tarixlərin odunda,
Yetərincə yetmədik dar anında.
Ahı tutar gülün, gülüstanın da,
Vətən bizi bağışlarmı görəsən?

Əl atmadıq yıxılana, durana,
Qan qoxuyan zaman adlı meydana,
Su səpmədik, uyduq daim şeytana
Vətən bizi bağışlarmı görəsən?

Getdi Şuşa, getdi Laçın, Kəlbəcər,
Gecə-gündüz "oğul" deyib inildər.
Qəmli dağlar, başın üstə çən gəzər,
Vətən bizi bağışlarmı görəsən?

Oyan millət, çatıb qisas zamanı,
Hünər göstər, susdur şərbaz zamanı.
Almalısan Şuşa adlı qalanı,
Vətən bizi bağışlarmı görəsən.

Daha dözmür xəyanətə ürəklər,
Xəzər coşub, pəncələşir küləklər.
Ürək dözmür bu qədər dərd, qəm yetər,
Vətən bizi bağışlarmı görəsən?

## NECƏ ƏL ÇƏKİM?

*M. Müşfiq şerinin təsiri ilə*

Sakit gecələrdə məst olur ürək,
Açır ürəyimdə min təzə dilək.
Bilmirəm röyadır, yoxsa bir gerçək,
Bu gözəl dövrandan necə əl çəkim?

Yayılır könlümə bahar nəfəsi,
Coşur ürəyimdə yazmaq həvəsi.
Hər təzə duyğudan şair nəğməsi,
Doğduqca, şerimdən necə əl çəkim?

Yayılar ruhuma bahar qoxusu,
Qaçar təbiətin yorğun yuxusu.
Coşar ürəyimin minbir duyğusu,
Doğan hər duyğudan necə əl çəkim?

Dərdikcə çəmənin tər çiçəyindən,
Mən ilham alıram hər ləçəyindən.
Arzular boylanır hey ürəyimdən,
Gözəl vətənimdən necə əl çəkim?

## COŞQUN GƏNCLİYİM

Bu gün yeni əsr, yeni bir dövran,
Durmayıb su kimi axır bu zaman.
Dəyişir kainat, dəyişir cahan,
Parlayır gəncliyim, coşur gəncliyim.

Ömrümün baharı, ömrümün gülü,
Bu həyat bağımın şeyda bülbülü.
Qəribə bahardır var bircə gülü–
Ömür baharımın gülü–gəncliyim.

Coşqundur dalğalı bir dəniz qədər,
Görünmür gözümə nə qəm, nə kədər.
Qaldırır insanı zirvəyə qədər,
Ümidlər çırağı, odlu gəncliyim.

Yaşadır insanı minbir diləklə,
Mehriban arzuyla, sevən ürəklə.
Günəş tək parlayan bir gələcəklə
Sabahlara gedir mənim gəncliyim.

# MƏKTƏB

Qayğısız illərim, qayğısız günlər,
Bilməzdik nə bir qəm, nə də ki kədər.
Sənsiz bu ömrümüz inan ki, hədər,
İsti bir ocaqsan bizlərə, məktəb.

İllər ötüşdükcə alışdım sənə,
Tapındım mən sənin böyüklüyünə.
Sən mənə dost oldun, mən də ki sənə
Böldüm uğurumu səninlə, məktəb.

Həyat yollarını səndə dolaşdım,
Körpə bir quş kimi qol-qanad aşdım.
Uçarkən büdrədim, bir az da çaşdım
Körpə qanadıma güc verdin, məktəb.

Artıq az qalıbdır o ayrılığa,
Bəlkə görüşmədik səninlə daha.
Unutma sən məni, daim xatırla,
Əzizlə balan tək, ay ana məktəb.

Çal indi son zəngi, əlvida deyək,
Son dəfə kövrələk, son dəfə gülək.
Artıq vaxt çatıbdır, daha biz gedək,
Gəlsin yerimizə körpələr, məktəb.

## MAHNILAR

Mahnılar, mahnılar gözəl mahnılar,
Ölümsüz yaşayan əzəl mahnılar.
Mahnıda dil açır gözəl duyğular,
Mahnıda canlanır sonsuz arzular.

Mahnılar dünyadır, mahnılar həyat,
Mahnılar ürəyə verir qol-qanad
Mahnıda canlanır bütün kainat,
Mahnılar həyata verir yeni dad.

Mahnılar nə sözdür, nə adi notdur,
Mahnılar insanın qəlbindən gəlir.
Mahnılar ölməyir, ölümsüz ruhdur,
Bəlkə də mahnılar ruhdur, yüksəlir.

İncə bir musiqi, incə bir mahnı,
Susdurar küləyi, dəli tufanı.
İncə bir musiqi, incə bir mahnı,
Salar öz sehrinə hər vaxt insanı.

Xalqların ürəyi, sözü, arzusu,
Mahnıda yaşayır hər bir istəyi.
Mahnıda canlanır bəşərin ruhu,
Keçmişi, bu günü və gələcəyi.

# HƏR FƏSLİ GÖZƏLDİR...

İnsanın gücündən can alır torpaq,
Yaz gəlir, güllənir hər kol, hər budaq.
Halal zəhmət ilə yanır min çıraq,
Hər fəsli gözəldir doğma kəndimin.

Çatır qurşağadək sarı sünbüllər,
Aləmi bəzəyir çiçəklər, güllər.
Oxuyur bülbüllər, şer qoşur dillər,
Hər fəsli gözəldir doğma kəndimin.

Aləmə yayılır çörəyin ətri,
Halal bir zəhmətin, əməyin ətri,
Başqadır heyvanın, əriyin ətri,
Hər fəsli gözəldir doğma kəndimin.

Bu çağı gördükcə qəlb gəlir dilə,
Dillənir misralar, şer gəlir dilə.
Gülsadə, yaz bunu, boş durma elə,
Hər fəsli gözəldir doğma kəndimin.

## BİLƏV KƏNDİ

Təbiət qoynunda bəsləyib səni,
Gözəl bir dövrana səsləyib səni.
İzin ver vəsf edim bu gün mən səni,
Gül-çiçək aləmi, ay Biləv kəndi.

Can alıb dağların qucaqlarında,
İsinib qalalar ocaqlarında.
Ucalıb zamanın sınaqlarında
Durmusan mərd kimi, ay Biləv kəndi.

Axır sağ-solunda, axır iki çay,
Dağlara, daşlara salıbdır haray.
Tanrı qismətinə verib böyük pay,
Dilbər bir guşəsən, ay Biləv kəndi.

Nə çoxdur qoynunda bağı, bağçası,
Ruh verir insana təmiz havası.
Xəstəyə can verən tutu, gilası,
Naz-nemət qucağı, ay Biləv kəndi.

Gözəldir hər qarış çölü, çəməni.
Lal olsan, inan ki, dindirər səni.
On beş gün qoynunda məst etdin məni,
Saldın öz sehrinə, ay Biləv kəndi.

## BAHAR

Təbiət söyləyir öz nəğməsini,
Yenə ovsunlayır şair qəlbini.
Aləmdən zövq alır, çağlayır ürək,
Duyur duyğularım yaz nəfəsini.

Yağır yaz yağışı göz yaşı kimi,
Dağıdır hər fikri, hər dərdi, qəmi.
Gördükcə bu çağı dəyişir insan,
İstəyir seyr etsin yaz aləmini.

Gülür çöl-çəmənlər, oxuyur quşlar,
Açır ürəklərdə neçə arzular.
Gördükcə bu çağın gözəlliyini,
Şer misrasına dönür duyğular.

# PAYIZ

Yetişdi payız da ömür fəsli tək,
Saralır yarpaqlar, solur hər çiçək.
Artıq görünməyir nazlı kəpənək,
Yerini yağışlar tutmaq istəyir.

Havalar soyuyub, yağışlar yağır,
Çılpaq ağacları yumaq istəyir.
Arabir qızılı şimşəklər çaxır,
Qəzəbin harasa çaxmaq istəyir.

Göy üzün bürüyən salxım buludlar,
Bir-birin uşaq tək sanki qovurlar.
Başlayır yağmağa seyrək yağışlar,
Ana tək laylalar demək istəyir.

QIzılı günəş də gizlənir artıq,
Onun istisindən uzaqlaşırıq.
Yay getdi, payızla salamlaşırıq,
Günəş də yenidən çıxmaq istəyir.

Gümüşü saçların darayıb yenə,
Budur, qızıl payız gəlir elimə.
Məhsulu, meyvəsi, naz-nemətiylə
İnsana nə isə vermək istəyir.

Arxada qoymuşuq nazlı baharı,
Gəlir payız fəsli, yelli, boranlı.
Uca dağların da başı dumanlı,
Yorğana bürünüb yatmaq istəyir.

## SEVGİ

Sevgi–şöləlnən ölümsüz ocaq,
Sevgi ürəklərə verilən dayaq.
Sevgi–ömürlərdə nurlanan çıraq,
Sevgidir, sevməyi öyrədən bizə.

Sevgi sevməkmidir, sevilməkmidir?
Sevgi ucalmaqmı, kiçilməkmidir?
Sevgi anamızdır, sevgi vətəndir
Sevgidir sevməyi öyrədən bizə.

Sevgisiz varmıdır görən bir insan?
Çətin, elə insan çətin tapasan.
Sevərkən nə qədər gözəldir cahan
Sevgidir sevməyi öyrədən bizə.

Sevgi etibardır, sevgi sədaqət,
Sevgi qarşılıqlı hörmət, məhəbbət.
Deyər bu ürəyim, dinləsəm xəlvət,
Sevgidir sevməyi öyrədən bizə.

## ZÖVQ AL, ÜRƏYİM

Aləmdən zövq alır döyünən ürək,
Baxdıqca gözümdə dəyişir cahan.
Göz açır qəlbimdə min arzu-dilək,
Gör necə xoşbəxtdir, xoşbəxtdir insan.

Ey şair ürəyim, vuran ürəyim,
Sən öz ilhamını təbiətdən al.
Demə nə gözəldir gülüm, çiçəyim,
Hərdən boz dağı da sən yadına sal.

Gülləri vəsf edib sayma yerində,
Göz açıb dünyanın sirlərinə bax.
Zamanın küləyi gülü əzəndə,
Qalaya dönübdü o ucalan dağ.

Zövq alıb yazdıqca mavi səhərdən,
Zülmət gecədən də xəbərin olsun.
Öyünmə günəşin gözəlliyindən,
Bacar bulud kimi ürəyin dolsun.

Qulaq ver yağışın zümzüməsinə,
Aləmə can verib nəğmə oxuyur.
Hopur boz torpağın sərt sinəsinə
Ölümü dünyanın yaşamı olur.

Sıxıb yaxasını göydə buludlar,
Yanan səhralara təzə can verir.
Can alıb canlanır susuz torpaqlar,
Yanmış sinəsindən ucalır ətir.

Ey şair ürəyim, dinlə sözümü,
Hər şeyə təzə bir ad verməlisən.
Unutma mərdliyi, bir də dözümü,
Axı sən dünyaya ögey deyilsən.

Ruhumu oxşayır dağlar küləyi,
Əsir ürəyimin incə telləri.
İncə duyğulardır şerin bəzəyi
Seçmə, bir-birindən gözəllikləri.

Beləcə oxşasın qoy aləm səni,
Şairlik həvəsin kükrəyib daşsın.
Vəsf elə dağları, gülü, çəməni,
Qoy nəğmən dünyanı gəzib dolaşsın.

## HƏYAT MƏNİ TƏKLƏRKƏN

Yanan qəlbim bu dünyadan nə gördü,
Acı qəmdən, acı dərddən savayı.
Dərdlər qəlbdə hasarını hörürdü,
Mən özümü hey aldatdım havayı.

Çox sirrimi sirdaşa da vermədim,
Göz yaşlarım gizli axdı qəlbimə.
Kədərimi kimsə ilə bölmədim,
Özüm yandım öz oduma, közümə.

Çoxu gördü, "bəxtəvərdi" dedilər,
Ürəyimdən xəbərləri olmadı.
Çoxları da dərdsiz, qəmsiz bildilər,
Arzularım mənzilinə varmadı.

Əzizimdən, yaxınımdan nə gördüm,
Donlu üzdən, yad gülüşdən savayı.
Xəzan vurdu, yarpaq kimi süzüldüm,
Mən əzəldən uduzdum bu davayı.

Nələr gördüm, nələr çəkdim əlindən,
Bu dünyanın bəxtəvəri olmadım.
Görən deyir qəm süzülür gözündən,
Mən dərd çəkdim, dərd çəkdirən olmadım.

## QALACAQ

Vurğunu olduğum uca dağların
Qoynunda min gizli sirrim qalacaq.
Sirdaşı olduğum uzun yolların,
Köksünə saldığım izim qalacaq.

Könlümü oxşayan sərin küləkdən,
Hələ neçə-neçə şerim doğacaq.
Astaca döyünən sakit ürəkdən,
Şairi yaşadan misra qalacaq.

Səfalı yurdumun gözəlliyini,
Şerə döndərən dilim olacaq.
Dərsəm də vətənin tər çiçəyini,
Dərmədiyim güldə əlim qalacaq.

## ŞER YAZ, DEYİR

Ay üzünə pərdə tutub buludlar,
Təklənibdi yalqız gecə, bir də mən.
Bulaq kimi qaynadıqca misralar,
Şer yazmaq gəlib keçir könlümdən.

Külək əsir, meh oxşayır ruhumu,
Xışıldayır ağacların yarpağı.
Dəyişdirir gecə mənim duyğumu,
Ürək dönüb olur misra bulağı.

Xəyallarda dolaşıram sanki mən,
Göz baxdıqca gördüyündən doymayır.
Neçə aləm gəlib keçir qəlbimdən,
Gözəlliyi bir-bir saymaq olmayır.

Nəhayətsiz gözəlliklər gözümdə,
Əvəz edir yerlərini birə-bir.
Mətəl qaldım, elə bil ki, gecə də,
Pıçıltıyla mənə şer yaz, deyir.

## SEVGİ ƏFSANƏSİ

Gözəl bir məkanın gözəl qoynunda,
Gül üzlü, xoşcamal bir pəri varmış.
Hər yoldan ötənlər, onu görənlər
O gözəl pəriyə heyran qalarmış.
Dərdindən dəliydi neçə igidlər,
Düşmüşdü bu eşqin oduna çoxu.
Kol olub yolunun üstə bitənlər,
Dəymişdi çoxuna bu eşqin oxu.
Ancaq gözəl qız da sevirdi birin,
Bu dəli sevdadan divanə idi.
Verib bir igidə sevdalı qəlbin,
Alovda qarsılan pərvanə idi.
Sevirdi oğlanı təmiz ürəklə,
Vermişdi bu eşqə bütün ömrünü.
Sabaha ümidlə, neçə diləklə,
Sayırdı həsrətli ömür-gününü.
Oğlan da sevirdi o gözəl qızı,
Qıza məhəbbəti əfsanə olmuş.
Yarını bilirdi ömrünün yazı,
Sanırdı həyatda bir xoşbəxt oymuş.
Ömrünü vermişdi nazlı gözələ,
Həyatın mənasın onda bilirdi.
Olmuşdu bu eşqə çarəsiz kölə,
Bu sevgi qəlbinə ilham verirdi.
Beləcə onların saf məhəbbəti,
Qarışdı torpağa, qarışdı suya.

Görüşüb sevənlər hərdən xəlvəti,
Sığmazdı sevgidən böyük dünyaya.
Beləcə fəsillər, aylar ötüşür,
Zaman da su olub axır bir anlıq.
Bahar bağçasına qış qarı düşür,
Düşür aralığa uzun ayrılıq.
Gün gəlir fırlayır fələk çarxını,
Hər şey dəyişilir bircə an içrə.
Qoyub ayrılığın uzun vaxtını,
İmtahan tutdurur o sevənlərə.
Gün gəlir, oğlanın yetişir vaxtı,
Çatır əsgərliyə getməyin dəmi.
Söyləyir yarına, ömrümün baxtı,
Gözlə sən yolumu, könül həmdəmi.
Yarın qucaqlayıb üzünə baxır,
Alovlu sözlərlə təsəlli verir.
Son dəfə o yaşlı gözünə baxır
Ayrılmaq üçün ona əl verir.
Yollanır yoluna oğlan həmin gün,
Qız da qəlbi dərdli bağçaya gəlir.
Düşür dodağına sanki bir düyün,
Yalnız "getmə, getmə..." kəlməsin deyir.
Süzülür gözündən dərdli göz yaşı,
Yandırır üzünü, lalə yanağın.
Heç kimi bilməyir ürək sirdaşı,
Özünə dost bilir tənha otağın.
Beləcə saatlar, həftələr keçir,

Ovunur gözəlin bir az ürəyi.
Bir gün əsgərindən bir məktub gəlir,
Oxuyur, sevincdən dolur gözləri.
Oğlan başlamışdı məktubu belə:
"Ellər gözəlinin halı necədi?".
Sonra da yazmışdı "az fikir elə,
Fəxr elə, de yarım indi əskərdi".
Oğlanın məktubun oxuyub gözəl,
Dərib nəfəsini gül tək qoxlayır.
Bağlayır məktubu dönə-dönə əl,
Əskər məktubunu gizli saxlayır.
O gecə gözəl qız rahatlıq tapır,
Şükr edib Tanrıya göyə əl açır.
Yarın xəyalıyla yuxuya dalır.
O, qəmli üzündən duman-çən qaçır.
Çox çəkmir bu rahat, uzun gecələr,
Fələk öz çarxını tərsə fırlayır.
Salır ortalığa bir acı kədər,
Araya əbədi ayrılıq salır.
Oğlan xidmətində olduğu zaman,
Başlayır düşmənlə bir odlu döyüş.
Tutur fələk ona amansız divan,
Çəkilir üzündən əbədi gülüş.
Hamıtək el üçün döyüşə girib,
Savaşır düşmənlə o igid oğlan.
Özünə bir kişi sözünü verib,
Deyir: "vətəninə olacaq qurban"

Ancaq bu arzusu həyata keçmir,
Düşmənin əlində o əsir qalır.
Acı yaşantılar gün-dirlik vermir.
Vaxt çatır, yetişir qıza bəd xəbər,
O, elə sanır ki, yarı məhv olub.
Daha gözəllikdən qalmayır əsər,
Sanır dünyasının mənası solub.
Yıxır acı xəbər sevdalı qızı,
Yaşlı gözlərinə qaranlıq çökür.
Solur eşq bağının çiçəkli yazı,
Sevgi nəğməsinin bülbülü ölür.
Həyatı, yaşamı sanır mənasız,
Çarəsiz yollardan çıxış axtarır.
Düşünə bilməyir ömrünü yarsız,
Sonda özü üçün bir qərar alır.
Çoxdan saxladığı gəlin paltarın,
Geyib bir aynanın önünə gəlir.
Üzünə saldığı gəlin duvağın,
Özü öz əliylə üzündən çəkir.
Son dəfə göz salır onda özünə,
Bir kağız, bir qələm əlinə alır.
Bu zaman sevdiyi gəlir gözünə,
Kağıza son dəfə nə isə yazır.
İndi vida vaxtı gəldi, yetişdi;
Qəsd edir həmin gün gözəl canına.
Nəhayət, pərvanə bu odda bişdi,
Boyandı ağ gəlin öz al qanına.

Bürüdü aləmi bu acı xəbər,
Aləm qan ağladı, ona yas tutdu.
Hamı dillənirdi: bu necə hünər...
O, yalnız eşqinin qurbanı oldu.
Verilib torpağa gəlin donunda,
Gözəl qız həyatdan əbədi köçdü.
O, yandısa da eşqin odunda,
Təmiz sədaqəti dillərə düşdü.
Bu dərddən həftələr, aylar da keçdi,
Qaysaqlandı eşqin qanlı yarası.
Gözəl qız ölümü tək çarə seçdi,
Bu sevgi oldu onun ömür bəlası.
Günlər bir-birini beləcə qovdu,
Oğlan əsirliyi bitirdi bir gün,
Sevdiyi gözəlin məhəbbətiylə
Özünü elinə yetirdi bir gün.
Sevinir, yarını görəcək deyə,
Can atır, qovuşsun gözəl pəriyə.
Səs düşür kəndinə, yayılır xəbər,
Kəndin igid oğlu geri qayıdıb.
Oğul atasına gəlir müjdələr,
"Oğlun ölməyibdir, oğlun sağ qalıb".
Yığılır qohumlar, dostlar, yaxınlar.
Beləcə ötüşür anlar, saatlar,
Oğlan nəhayət ki, yarını sorur.
Çökür ortalığa bir anlıq sükut,
Bu sual hər kəsin dilini yumur.

Heç kim dilə gəlmir, yenə də sükut,
Oğlan dəli halda bir daha sorur.
Oğlanın atası gəlib irəli
Bütün olanları ona danışır.
Söyləyir oğluna o, həqiqəti,
Oğlanın ürəyi yanır, alışır.
Sonra ata oğluna tutur üzünü,
Yarının taleyin ona söyləyir.
Toplayıb bir təhər sonra özünü
Qızın son məktubun oğlana verir.
Alıb o məktubu əlinə oğlan
Qızın son sözlərin bir-bir oxuyur.
Çökür gözlərinə bir acı duman,
Dünya yarsız ona mənasız olur.
Məktubda yazmışdı o qız bunları:
"Ah sevgi, ah sevgi nə böyük duyğu,
Nə acı, nə şirin bir varlıq imiş.
Məhəbbət gör necə qəribə duyğu,
Həmişə sevinc yox, dərd də verərmiş.
Sevmişəm, sanmışdım bu eşqim ölməz,
O, mənə od oldu mənsə pərvanə.
Bəli, məhəbbətim heç zaman sönməz,
Son dəfə yanıram odunda yenə.
Mən tərk eyləyirəm dünyanı indi,
Son dəfə yarımın adın anaraq.
Ölən bir qız deyil, ölən gəlindi,
O, xoş duyğuları bir də duyaraq..."

Oğlan oxuduqca bu son sözləri,
Öz xəyal dünyası başına çökdü.
Oxudu, oxuduqca doldu gözləri,
Elə bil ömrünün çırağı söndü.
Getdi mələyinin qəbrinin üstə,
Sarılıb məzara haray qopardı.
Bu dərd oğlanı da elədi xəstə,
Bu acı tale də onu apardı.
Onu dəfn etdilər qızın yanında,
İndi qovuşdular qəlbən sevənlər.
Qalsın bu əfsanə el yaddaşında,
Sevginin yolunda candan keçəllər,
Bəli, bir sevginin iki qurbanı,
Oldu iki həyat, oldu iki qəlb.
Ölüm sevənlərin axır ünvanı,
Vəfa, sədaqətdir sevgidə mətləb.

# MÜNDƏRİCAT


VƏTƏN BİR İNCİDİR 4
QAYIDIŞ 5
MƏNİM ŞAH DAĞIM–MÖHTƏŞƏM HEYDƏR 6
EL OĞLU İLHAM 8
ULU RƏHBƏRİM 9
VAR OLSUN BABAMIZ 11
TARİXİN ÜÇ ŞƏXSİYYƏTİ 12
ONUNLA UCALIR QƏDİM NAXÇIVAN 13
NAXÇIVANIM MƏRD OĞULLAR YETİRDİ 14
MÜQƏDDƏS OCAQLAR YARADAN İNSAN 15
NAXÇIVANLA QOŞA YAŞA, VASİFİM 17
QƏDİM NAXÇIVAN 18
MƏNİM DİLİM 19
BİZİM ŞANLI BAYRAĞIMIZ 20
AZƏRBAYCAN 21
NUHÇIXANIM 22
XOŞ GƏLDİNİZ 23
GÜLLƏN, NAXÇIVAN 24
VƏTƏN BAYATILARI 25

İRƏLİ, İGİD ƏSKƏRİM 26
AYAĞA QALX 27
HARDADI 28
QARABAĞ YOLU 29
ANAM, AY ANAM 30
FƏXRİMİZ SƏNAN 31
AZADLIQ EŞQİ 33
VƏTƏN BİZİ BAĞIŞLARMI GÖRƏSƏN 35
NECƏ ƏL ÇƏKİM? 36
COŞQUN GƏNCLİYİM 37
MƏKTƏB 38
MAHNILAR 39
HƏR FƏSLİ GÖZƏLDİR... 40
BİLƏV KƏNDİ 41
BAHAR 42
PAYIZ 43
SEVGİ 44
ZÖVQ AL, ÜRƏYİM 45
HƏYAT MƏNİ TƏKLƏRKƏN 47
QALACAQ 48
ŞER YAZ, DEYİR 49
SEVGİ ƏFSANƏSİ 50

**Gülsadə Əhməd qızı İbrahimli**

# *VƏTƏN BİR İNCİDİR*

***Redaktoru***
**Muxtar Qasımzadə.**

***Texniki redaktoru və kompüter tərtibatı* Rafael Babayev.**

Yığılmağa verilmiş 02.07.2003. Çapa imzalanmış 15.07.2003. Formatı 60X90 1/16 "Tayms" qarnituru. Ofset çap üsulu. Ofset kağızı. Həcmi 3,75 ç.v. Sifariş № 420. Tiraj 300 nüxsə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.